

*Mustafa Çəmənli*

# NƏŞRİYYATLARDA KEÇƏN ÖMRÜM

## (Xatirələr)

**(əvvəli ötən şənbə saylarımızda)**

Onu da deyim ki, hörmətli professor kitabda Şərif İdrisovun toplayıcı kimi adının getməsinə də etiraz etmədi. Şərif İdrisovun təqdim etdiyi şeirlər kitabda - "Müxəmməs, müsəddəs, müsəbbə, tərcibənd, zəncirləmə, dübeyiti, misal, deyişmə" başlığı altında verildi.

Burada Molla Cümənin Şərif İdrisovun təqdim etdiyi müxəmməsindən bir bəndi oxuculara ərməğan edirəm:

**Bixəbərsən, ey könül, nə eyləmiş dövran sənə,**
**Dərdin artmış dəryadan, etməz əlac loğman sənə,**
**Yanğılısan ol qədər, kar eləməz ümman sənə,**
**Ah çəkib ağlagilən, gəlibdir bir mehman sənə,**
**Şirindən olsun əmin, vacibdir yüz qurban sənə,**
**Bixəbərsən, ey könül, nə eyləmiş dövran sənə?!**

Dahi Nizami Gəncəvi deyir ki, insan qəlbinin soltanı Allah olsa, o insanın bu dünyası və axirəti bayram olar. Çox şükür ki, mənim də qəlbimin sultanı Yaradanımızdı, könlümdə şeytana yer yoxdur. Allahın ruhuma köçürtdüyü nəcib duyğuların təsiri ilə təmasda olduğum, bir yerdə işlədiyim insanları - pislikləri, naqisliklərı unudaraq - xoş xatirələrlə yad edirəm. Dahi İbn Sina yazır ki, heç vaxt yalan danışmayan və əfv etməyi bacaran adam insanların ən xoşbəxtidir.

1985-ci ildə çap etdirdiyim "İtirilmiş səs" adlı hekayəmdə obrazın dililə belə bir fikir söyləmişdim: "...insan üçün ölümdən qorxulusu elə budur - təmasda olduğun, dostluq elədiyin adamın səsini itirməkdi. Çünki sən dostunu, yoldaşını, doğrudan da, cismən itirə bilərsən, səsini isə ... Səs evinin artırmasında özünə yuva quran qaranquş kimidi, qaranquş! Əgər sən onun yuvasını dağıtmasan perik düşməz... İndi beledi də, Ağakərim müəllim, sözə qanad verən, sənə ruh verən, könlünü oxşayan o səsi itirmisənsə, nə deyim sənə?!"

Yaradanımıza borcluyam ki, mən heç kəsin yaddaşıma həkk olunmuş səsini, gözümlə çəkdiyim şəklini unutmamışam. Müəlliflərimiz olmuş Əkrəm Cəfəri, Məmmədağa Sultanovu, Kamran Məmmədovu, Bəylər Məmmədovu, Cahid Quliyevi, Mirabbas Aslanovu, Əbülqasım Hüseynzadəni, Əbülfəz Hüseyni, Samət Əlizadəni, Nazim Axundovu, Hüseyn Arifi (onun 1985-ci ildə iki cilddə "Seçilmiş əsərləri" bizim şöbədə oxunmuşdu), Həmid Məmmədzadəni, Turan Cavidi, Bayram Bayramovu, İsmayıl Şıxlını, İsa Muğannanı, Sabir Əhmədovu, Əsif Atanı, Akif Hüseynovu, Ələviyyə Babayevanı, Əzizə Əhmədovanı və daha başqa dəyərli insanlarımızı bu gün də yaxşı xatırlayıram.

Yadımdadı, 1981-ci ildə Həmid Məmmədzadə Qulamhüseyn Beqdeli ilə birlikdə Məhəmmədhüseyn Şəhriyarın poema və şeirlərdən ibarət əl boyda bir kitabını tərtib etmişdilər. Mən hörmətli Qulamhüseyn Beqdeli ilə nəşriyyatda heç zaman rastlaşmamışdım, Həmid Məmmədzadə isə şöbəmizə tez-tez gələrdi. Ucaboylu, ciddi bir kişiydi. Kitabın redaktorluğu tərcümə redaksiyasının əməkdaşı şair Ağasəfaya tapşırılmışdı.

Bu kitaba şairin o zaman dillər əzbəri olan "Heydərbabaya salam" poeması da daxil edilmişdi. O vaxtkı gənclik bu poemaya necə vurğun idi, İlahi! Bu poemaya saysız-hesabsız nəzirələr yazılmışdı. O dövrdə Şəhriyarın bu kitabına çox uğurlu bir ad seçilmişdi - "Aman ayrılıq". İran ərazisinə gediş-gəlişin məhdud olduğu bir dövrdə bu adın ruhumuzda yaratdığı təbəddülat bambaşqaydı:

**Bizi yandırır yaman ayrılıq,**
**Bu darıxdıran duman ayrılıq.**
**Gözə sovrulan saman ayrılıq,**
**Aman ayrılıq, aman ayrılıq!**

"Aman ayrılıq" kitabına rəssam Fəxrəddin Əliyev gözəl illüstrasiyalar çəkmişdi.

Professor Həmid Məmmədzadə, gec də olsa, yenidən vətəninə - Cənubi Azərbaycana köçdü. Dəyərli professor orada da Şəhriyarı unutmadı. 1988-ci ildə Tehranda "Məhəmmədhüseyn Şəhriyar (türk divanı külliyyatı)" kitabını nəşr etdirdi

O zaman ağlıma da gəlməzdi ki, gün gələcək, "Təhsil" adlı nəşriyyatımız da olacaq, mən də orada çalışacağam və "Məktəb kitabxanası" seriyasından Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasını çapa hazırlayıb ön söz yazacağam. Özü də az qala dodaqaltı zümzümə edə-edə:




**Heydərbaba, yolum sənnən gəc oldu,**
**Ömrüm keçdi, gələmmədim, gec oldu.**
**Heç bilmədim gözəllərin necoldu,**
**Bilməz idim döngələr var, dönüm var,**
**İtginlik var, ayrılıq var, ölüm var.**

***

Şöbəmizin istəkli müəlliflərindən biri də professor Əkrəm Cəfər idi. Əkrəm müəllim bizim şöbəyə böyük dramaturqumuz Hüseyn Cavidin qızı Turan Cavidlə gəlmişdi. O zaman Hüseyn Cavidin dördcildliyi nəşriyyatın planına salınmışdı. Dördcildliyin tərtibçisi Turan Cavid, ön sözün müəllifi Məmməd Cəfər, redaktoru, izahların, qeydlərin müəllifi isə Əkrəm müəllim idi. Onlar Hüseyn Cavidin hər kəlməsinin, hər sözünün üstə əsirdilər. Elə ilk tanışlıqda bilmişdim ki, Əkrəm Cəfər Hüseyn Caviddən dərs almışdır. O, unudulmaz müəlliminə böyük ehtiram bəsləyirdi. Ümumiyyətlə, Əkrəm Cəfər və onun yaşıdları olan alimlər Hüseyn Cavidin yaradıcılığının vurğunuydular, yeri gələndə onun şeirlərini, dramlarından müvafiq parçaları, xüsusən İblisin monoloqunu əzbər söyləyirdilər.

**İblis!.. O böyük ad nə kadar calibi-heyrət!**
**Hər ölkədə, hər dildə anılmaqda o şöhrət.**
**Hər qübədə, kaşanədə, viranədə İblis!**
**Hər Kəbədə, bütxanədə, meyxanədə İblis!**

Adam Əkrəm müəllimin yaddaşının, zehninin itiliyinə heyran qalırdı. Əkrəm Cəfər mənalı, həm də mürəkkəb bir ömür yaşamışdı. Ərəb, fars, rus və başqa dilləri mükəmməl bilən bu alimi də pantürkizmdə, panislamizmdə və kiril əlifbasına qarşı çıxmaqda günahlandırıb ona 7 il iş kəsmişdilər. Bu minvalla böyük alim nahaqdan vətənindən uzaqlarda 12 il sürgün həyatı keçirmişdi. O, bütün bu haqsızlıqlara sinə gərərək sonsuz həyat eşqini, insanlara olan sevgisini qoruyub saxlamışdı.

Əkrəm Cəfərin redaktəsi ilə Hüseyn Cavidin "Seçilmiş əsərləri"nin I və II cildləri 1982-ci ildə, III və IV cildləri isə 1984-1985-ci illərdə işıq üzü gördü.

Əkrəm Cəfər Azərbaycan əruzşünaslığının əsasını qoymuşdu. O, "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu" adlı monumental bir kitabın müəllifi idi. Yadımdadı, Əkrəm müəllim Məhəmməd Füzulinin əsərlərini tərtib edərək nəşriyyata təqdim etmişdi. Kitaba yazılmış müqəddimə, şərh və lüğət də ona məxsus idi. O, ön sözdə tərtibçi olaraq "Seçilmiş əsərləri" hansı prinsiplə tərtib etdiyini belə açıqlamışdı: "Bu nəşrdə Füzuli əsərlərinin janrlar üzrə tərtibinə də diqqət edilmişdir. Birinci sırada klassik ədəbiyyatın ölməz janrı olan qəzəllər, sonra qəzəllə şəkilcə ən yaxın olan qəsidələr, sonra sırası ilə dördlük, beşlik və altılıqlar, daha sonra şəkilcə bunlardan fərqlənən tərci və tərkibbəndlər, bunlardan sonra divan ədəbiyyatı ənənəsi üzrə qitələr, onların ardınca müdrikanə və miniatür janr olan rübailər verilmişdir. Bunlardan sonra "Şikayətnamə"dən qısa parçalar, nəhayət, dahi şairin şah əsəri sayılan "Leyli və Məcnun"un inci qəzəlləri və şairin həyatı, yaradıcılıq yolu ilə bağlı olan parçalar, habelə indiyə qədər geniş oxuculara məlum olmayan məşhur "Hədiqətüs-süəda" əsərindən 72 seçmə şeir bu nəşrə daxil edilmişdir".



Əkrəm Cəfər

Əkrəm müəllim Füzulinin "Seçilmiş əsərləri"nin nəşri ilə əlaqədar tez-tez nəşriyyata gələrdi. Onun hər gəlişi bizim üçün əsl bayramdı. Çünki o, canlı ensiklopediya idi. Bu böyük alim otaqda gəzişə-gəzişə vurğunu olduğu Məhəmməd Füzulinin müxtəlif bəhrlərdə yazdığı qəzəllərdən nümunələri o qədər qeyri-adi ahənglə oxuyurdu ki, adam heyran olurdu. Bu bəstəboy, dolu bədənli, ağsaç alimdən ayrılmaq istəmirdin.

Mən bir dəfə nə məqsədləsə Əkrəm müəllimin evində olmuşdum. Onun böyük stolunun üstündəki kartotekaya baxanda məni heyrət bürümüşdü. Bu bir-birinə sıxılmış saysız-hesabsız kartoteka böyük alimin mütaliəsinin hüdudsuzluğuna şahidlik edirdi.

"Stalinin dövründə yalnız insanları deyil, elmi də, sənəti də zorlayırdılar" deyən Əkrəm Cəfər Lenin hökumətinin qanlar tökərək qurduğu Sovet İttifaqının çökdüyünü də gördü. 18 avqust 1991-ci ildə, 86 yaşında haqq dünyasına qovuşan görkəmli alim on ikicə gün də yaşasaydı, dövlət müstəqilliyimizin bərpa edilməsi haqqında "Azadlıq bəyannaməsi" qəbul olunduğunu eşidib bu dünyadan rahat gedərdi.

***

Xalq şairi Səməd Vurğun yaxşı deyib ki:

**Bir də görürsən ki, açılan solur,**
**Düşünən bir beyin, bir torpaq olur.**
**Bir yandan boşalır, bir yandan dolur,**
**Sirrini verməyir sirdaşa dünya.**

1983-cü ilin yanvarında iş yoldaşımız yazıçı-dramaturq Seyfəddin Dağlı vəfat etdi. Onun cənazəsi Azdramanın səhnəsində qoyulmuşdu. Ailəsi, yaxın qohumları, dostları, oxucuları yazıçını son mənzilə yola salmaq üçün Azdramanın salonunda və qarşısında toplaşmışdılar. Əlbəttə, bizim əlimizdən bu ağır itkiyə görə təəssüflənməkdən özgə bir iş gəlmirdi. Yeganə təsəllimiz o idi ki, Seyfəddin müəllim özündən sonra xoş əməllər qoyub gedirdi.

O ərəfədə artıq Vaqif Səmədoğlu da "Yazıçı"da işləmirdi, "Azərbaycanfilm" kinostudiyasına getmişdi.

1983-cü ilin sentyabrında Məmməd İsmayılı "İşıq" nəşriyyatına direktor təyin etdilər. O gedən gündən direktorun əmri ilə şöbə müdiri əvəzi işlədim. 1984-cü il 7 martda isə Mətbuat Komitəsi mənim şöbə müdiri vəzifəmi rəsmi olaraq təsdiq etdi. Elə həmin ildə iş yoldaşım Qəşəm İsabəyli "İşıq" nəşriyyatına gedib, sifariş ədəbiyyatı şöbəsinə rəhbərlik etməyə başladı. Daha sonra o, Mədəniyyət Nazirliyinin yeni yaratdığı "Şur" nəşriyyatına direktor təyin olundu. Müstəqillik illərində isə, "Şirvannəşr" nəşriyyatını təsis edərək sərbəst çalışmağa başladı.

1984-cü ildə nəşriyyatımız o dövrün məşhur Növbahar restoranının ikinci mərtəbəsinə köçdü. Yeni binada otaqlar kifayət qədər çox və işıqlıydı. Təzə binaya köçərkən Həmkarlar İttifaqının sədri kimi mənim və yaşıdlarımın fiziki köməyi çox oldu.

Nəşriyyatın yeni ünvana köçməsində Əjdər Xanbabayevin rolu və zəhməti çox olmuşdu. Əlbəttə, şəhərin düz mərkəzində işləmək işçilər üçün hər mənada sərfəliydi. Kefimizə soğan doğrayan yeganə məsələ nəşriyyatın ünvan məsələsiydi. Azərinformun binasında olanda nəşr etdiyimiz kitabların arxasına "Kirov prospekti, 18" yazılırdısa, indi də adını heç cür xatırlaya bilmədiyim bir erməni daşnakının adı yazılacaqdı. Nəşriyyatın rəhbərliyi, o cümlədən əməkdaşlar böyük tirajlarla çap olan Azərbaycan kitablarının arxasında daim bizə kin bəsləyən, xalqımıza hər hansı xidməti belə bəlli olmayan bir "yan"ın adının getməsini heç cür qəbul edə bilmirdi. Əjdər Xanbabayev və nəşriyyatın baş redaktoru Sabir Rüstəmxanlı dəfələrlə Bakı Sovetinə müraciət etdikdən sonra kitablarımızın arxasına ünvan olaraq Natəvan meydanı, 1 yazıldı. Bu işin müsbət həllində şairənin abidəsinin nəşriyyatın lap yaxınlığında olması çox yerinə düşdü. Nəşriyyatın binası ilə Xan qızı Natəvanın heykəlini sahilə gedən küçə ayırırdı.

**Bu dövrdə mənim müdiri olduğum klassik ədəbiyyat və folklor redaksiyasında Zərifə Hüseynova, Nərgiz Bayramova, Musa Axundov, Sərhəd Nəsirzadə, Məmməd Aslan və Eldar Quliyev redaktor vəzifəsində çalışırdılar. Məmməd Aslan "Yazıçı" nəşriyyatına gəlməzdən öncə "Ulduz", "Azərbaycan təbiəti" jurnallarında, "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" kimi nüfuzlu qəzetlərdə işləyib püxtələşmiş incə ruhlu bir şair idi. Təbiət vurğunuydu. Bu da yəqin ki, onun Kəlbəcər kimi mənzərəli bir rayonda doğulub boya-başa çatmasının bəhrəsiydi. Məmməd Aslan rayonlara səfər edəndə adi bir ağacda, çay daşında elə bənzəyişlər görürdü ki, mində bir adam bunun fərqində ola bilməzdi. Məmməd Aslan həmin ağac parçasını, çay daşını götürüb gələr, onu cilalatdırar, yeni bir həyat verərdi. Onun Sumqayıtdakı evi belə təbii əntiq şeylərlə dolu idi.**

(ardı gələn şənbə sayımızda)